BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 Sosial-siyasi elmlər seriyası 2018

## PEDAQOGİKA

UOT 373.1

# MÜASİR MÜƏLLİMİN İNNOVATİV PEDAQOJİ FƏALİYYƏTİNİN MƏZMUNU VƏ XÜSUSİYYƏTLƏRİ

**İ.O.MƏMMƏDOVA**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*Elchin_Mamedzade@hotmail.com*

*Məqalədə müasir müəllim haqqında geniş məlumat verilmişdir, eləcə də onun innovativ pedaqoji fəaliyyətinin məzmunu və xüsusiyyətləri açıqlanmışdır. Məqalədə qarşılıqlı münasibətlərin və qanunauyğunluqlarının nəzəri əsaslarının nəticələri qeyd olunmuşdur. Mövcud kontekstdə müasir müəllimin innovativ pedaqoji fəaliyyətinin məzmunu və xüsusiyyətləri açıqlanmışdır.*

**Açar sözlər:** müəllim, innovasiya, innovativ pedaqoji fəaliyyət, pedaqoji texnologiyalar, funksional komponentlər.

Ərəbcədən «عمل» - «e`amal» fəaliyyət deməkdir. Artıq bizə məlumdur ki, innovasiya termini Şərq dünyasından uzaqdır, lakin «الابتكار التربوي» - «əl ibtikarü əl tərbui» - «təhsil innovasiyası» mənasını verdiyi üçün, müəllimin təhsilə gətirdiyi yeniliy, «نشاط تربوي مبتكر» - «nasihat tarbawiun mubtakir» ifadəsi isə müəllimin innovativ pedaqoji fəaliyyəti kimi qəbul edilmişdir [2].

Pedaqoji innovatika pedaqogika elminin bir qoludur. Pedaqoji innovatika pedaqoji fəaliyyətdə baş verən yenilikləri, onların prinsiplərini, metod və vasitələrini tədqiq edir (53).

Müasir müəllimin innovativ pedaqoji fəaliyyəti. Müasir müəllim yenilikləri yaratmalı, yüksək səviyyədə mənimsəməli və təhsilalanların təlim-tərbiyəsində onları praktiki tətbiq etməlidi [3].

İnnovativ pedaqoji fəaliyyətinin strukturunu müəyyənləşdirmək prinsipial əhəmiyyət kəsb edir. İnnovativ pedaqoji fəaliyyətin strukturunu müəyyənləşdirmək üçün pedaqoji elm və təcrübələrinin ən mühüm anlayışları olan "pedaqoji fəaliyyət" və "pedaqoji fəaliyyətin strukturu" anlayışlarının mahiyyətinə aydınlıq gətirmək lazımdır.

Məlum olduğu kimi, innovativ pedaqoji fəaliyyət təhsil mədəniyyətinin müxtəlif formalarının inkişafı və mənimsənilməsi əsasında məqsədəuyğun dəyişiklik və islahatlarına təminat verən ətraf mühit ilə fəal münasibətdə olan



xüsusi keyfiyyətlərə malik müəllimin fəaliyyətidir [4].

İnnovativ pedaqoji fəaliyyət modelinin təhlil və quruluşuna sistemli yanaşma prinsipinin tətbiqini perspektivli hesab etmək olar. Sistemli yanaşma ideyası yeni deyil. Sistemli yanaşma nəzəri və praktik problemlərin həlli üçün olan elmi metoddur. Lakin bu metod psixoloji-pedaqoji tədqiqatlarda son illərdə geniş şəraitdə tətbiq olunur.

Pedaqoji yeniliklərin yaradılması, onların pedaqoji cəmiyyət tərəfindən inkişaf etdirilməsi, qiymətləndirilməsi və nəhayət, tətbiq edilməsi məsələləri innovativ pedaqoji fəaliyyətin məzmununu təşkil edir. Pedaqoq-alimlərin və pedaqoqların əsas maraqlandığı sahə bilik sistemidir və onlara müvafiq olan fəaliyyətdir. Onlar pedaqoji yenilikləri və onun prinsiplərini, qanunlarını, vəsaitlərini, tətbiqetmə sərhədlərini və digər elmi xüsusiyyətləri ilə bağlı maraqlı araşdırmaların müəllifidir. Bütün bunlar innovativ pedaqoji fəaliyyətin metodoloji aspektlərinin öyrənilməsinə zəmin yaradır. Elmi-pedaqoji ədəbiyyatda innovativ pedaqoji fəaliyyətin metodik əsaslarını qurmaq üçün həmin anlayışın mahiyyəti belə şərh edilir: «İnnovativ pedaqogikanın metodologiyası bilik və fəaliyyətlər sistemidir. Yeniliklərin yaradılması, mənimsənilməsi və tədbiqi innovativ pedaqoji fəaliyyətin quruluşu ilə bağlıdır» Deməli, sistemli yanaşma yeni elmi istiqamətin yaranmasını şərtləndirir.

Funksional sistemlər nəzəriyyəsi pedaqogikada sistemli yanaşmadan istifadəyə şərait yaratmışdır. Yalnız elə seçilmiş kompleksi sistemli adlandırmaq olar ki, qarşılıqlı təsir və əlaqə ilə nəzərə alınmış əlverişli nəticənin əldə edilməsinə yönəldilən komponentlərin qarşılıqlı əlaqə xüsusiyyətini qazanır.

Fikrimizcə, pedaqoji sistem dedikdə məqsədəuyğun olaraq şagirdin inkişafına yönəldilən fəaliyyəti ilə, xüsusi strukturla, onun elementləri arasında olan əlaqələr və münasibətlərlə səciyyələnən sistem başa düşülür. Hesab etmək olar ki, pedaqoji sistemlərdə əsas sistemi təşkil edən amil konkret şəraitdə xüsusi forma və istiqamətləri əldə edən fəaliyyətdir.

Pedaqoqikada innovativ pedaqoji fəaliyyətin təhlilinə sistemlərin ümumi nəzəriyyə tətbiqi üçün çoxlu variantlar mövcuddur. Elmi-pedaqoji ədəbiyyatda pedaqoji sistemin mahiyyəti ilə bağlı verilən elmi şərhlərə diqqət yetirək:

1). «Pedaqoji sistemi məktəblilərin şəxsiyyətlərinin sonrakı sistemdə müstəqil, məsuliyyətli və səmərəli məsələlərin həllinə hazırlığı üçün formalaşması məqsədindən asılı olan struktur və funksional elementlərin əlaqələri kimi müəyyənləşdirmək olar»;

2). «Şəxsiyyətin formalaşması üçün təşkiledilmiş, məqsədyönlü pedaqoji təsirin qarşılıqlı əlaqəli vasitəsi, metod və proseslərin toplusu – pedaqoji sistem adlanır» [4].

Bu modeldən də beş tərkib strukturu ayırırlar:

1. Pedaqoji təsir subyekti;
2. Pedaqoji təsir obyekti;
3. Onların birgə fəaliyyət obyekti;
4. Tədrisin məqsədi;

5. Pedaqoji kommunikasiya vasitələri [7].

Fikrimizcə, bütün göstərilən komponentlər bir sistem təşkil edirlər. Bu o deməkdir ki, heç bir komponenti digərilə əvəz etmək və yaxud sistemdən çıxarmaq qətiyyən olmaz. Hazırkı vəziyyətdə pedaqoji sistemin bütün struktur komponentləri həm düz, həm də əks asılılıqdadır. Ən başlıcası isə budur ki, tərtib edilmiş sistemlər məhz bir-birindən necə asılı olmaqlarını aydınlaşdırmaq lazımdır.

İnnovativ pedaqoji fəaliyyət müəllimin təşkilatçılıq bacarığı, onun təhsilalanlarla qarşılıqlı əlaqə yaratması qabiliyyəti ilə sıx əlaqəlidir.

Ə.Paşayev və F.Rüstəmov araşdırmalarında innovativ pedaqoji fəaliyyətin beş funksional komponentini qeyd etmişlər:

1. Qnostik komponent pedaqoqika elmləri sahəsinə aiddir. Yalnız özünə aid olan sahəni bimək deyil, həm də təhsilalanların pedaqoji kommunikativ qabiliyyətlərini, psixoloji xüsusiyyətlərini, pedaqoqun hansı dərəcədə inkişaf etmiş özünüdərketmə prinsipi nəzərdə tutulur. Təlim, eləcə də təhsil və tərbiyyənin məqsədləri, tədris olunan fənnin əhatə baxımından və onun məzmunu barədə ümumi biliklər, təhsilalanları hərtərəfli öyrənmək prinsipi, təlim prosesinin texnologiyalarını öyrənərək həm öyrədici, həm də tərbiyəedici treninqlər keçirmək zəruridir.

2. Layihələşdirici (planlaşdırma) komponenti tədris və tərbiyənin perspektiv məsələləri, o cümlədən nailiyyətlərin strategiyası və üsulları haqqında təsəvvürlərdən ibarətdir. Bu komponent gələcəkdə inkişaf etməyə yaxşı şəraiti olan məqsədləri özündə cəmləşdirir.

3. Konstruktiv komponent. Bu komponent pedaqoqun öz fəaliyyətini, eləcə də tədris və tərbiyəsinin perspektiv məqsədlərini nəzərə almaqla şagirdlərin fəallıqlarını özündə əks etdirir. İrəlidəki məşğələni yerinə yetirmək üçün müxtəlif əməliyyatlar kompleksini əhatə edir.

4. Kommunikativ komponent. Bu komponent müəllimin kommunikativ fəaliyyətini, onun şagirdlərlə qarşılıqlı əlaqəsini özündə cəmləşdirir. Kommunikasiyanın didaktik məqsədlərinə nail olmağa yönəldilmiş pedaqoji fəaliyyətin təsirliliyi ilə bağlılığı xüsusi olaraq qeyd olunur. Eləcə də kommunikativ komponent özündə müəllimin təşkilatçılıq, avtoritar, perspektiv və pedaqoji refleksiya kimi qabiliyyətlərini özündə əks etdirir.

5. Təşkiklatçılıq komponenti pedaqoqun öz fəaliyyətini, eləcə də təhsilalanın fəaliyyətini təşkil etmək məharətindən ibarətdir. Bizə məlumdur ki, təlimin və tərbiyənin faydalı, xeyirli, məqsədəuyğun, bir sözlə səmərəli olması üçün müəllimdən və onun təşkilatcılıq bacarığından asılıdır. Təhsilalanların kollektivini qarşılıqlı əlaqə yaratmaq prinsipi ilə təşkil etmək yaradıcı yanaşma tələb edir [6].

Bəzi tədqiqatlarda dörd funksional komponentdən bəhs olunur:

1. Prezentasiya (təqdimetmə) funksiyası. Bu funksiya şagirdlərin material məzmununu şərh etmələrindən ibarətdir.

2. İntensiv funksiya informasiyanın mənimsənilməsinə maraq yaradılmasından ibarətdir.



3. Təshih (düzəldilmiş) funksiya. Bu funksiya şagirdlərin özlərinin fəaliyyət nəticələrinin düzəlişi və müqayisəsi ilə bağlıdır.

4. Diaqnozlaşdırma funksiyası. Bu funksiya müəllimin fəaliyyətinin diaqnozlaşdırılmasından ibarətdir [6].

İnnovativ pedaqoji fəaliyyət modelləri çoxdur, onların hamısı pedaqoqun pedaqoji fəaliyyəti, pedaqoji bacarıqları, vacib peşəkarlıq keyfiyyətləri haqqında təsəvvür yaradır. İnnovativ pedaqoji fəaliyyət – fərdi deyil, birgə, kollektiv halda baş verən fəaliyyətdir. O, ünsiyyət qanunu ilə qurulur. İnnovativ pedaqoji fəaliyyətin əsas məqsədlərindən biri də budur ki, birgə və yaxud kollektiv halda baş verən fəaliyyət şagirdlərin şəxsiyyətyönümlü inkişafını təmin edir. Belə fəaliyyəti şagirdlərin tədrisi və tərbiyəsinə yönəldiləndə daha səmərəli olur.

İnnovativ pedaqoji fəaliyyəti müəllimin şəxsi kateqoriyası, yaradıcı prosesi və yaradıcılıq fəaliyyətinin nəticəsi kimi göstərilir.

Tədqiqatımız üçün müəllimin innovativ pedaqoji fəaliyyət strukturu böyük əhəmiyyət kəsb edir. Tələbələrin innovativ pedaqoji fəaliyyətinə hazırlaşdırılması məqsədi üçün konstruktiv modeli daha üstündür. Müəlliflərin konsepsiya barəsində təriflərinə görə, innovativ fəaliyyət təhsilin mövcud forma və metodlarının dəyişdirilməsinə, onların reallaşdırılması üçün yeni məqsəd və vasitələrin yaradılmasına yönəldilib. O, insanların məhsuldar yaradıcılıq fəaliyyətidir.

F.N.Honobolinin, V.İ.Zyaqvyazinskinin, V.A.Kan-Kalikanın, A.K.Markovun, N.D.Nikandrovanın və N.R.Yusufbəyovun innovativ pedaqoji fəaliyyətin istiqamətləri ilə bağlı elmi-tədqiqat araşdırmaları müxtəlif elmi-pedaqoji ədəbiyyatlarda öz əksini tapmışdır. Y.K.Babanski və M.M.Potaşnikov pedaqoji nailiyyətlərin öyrənilməsində və qabaqcıl innovativ pedaqoji fəaliyyət təcrübəsinin yayılmasında böyük rolları olmuşdur [57, 58, 122]. M.S.Burgin, V.Klarin, S.D.Polyakov, L.S.Podımov və A.V.Xutorskiy tərəflərindən müasir təhsil sistemində baş verən «innovasiya hadisələri» geniş araşdırılmışdır [14].

Pedaqoji elmdə «innovativ pedaqoji fəaliyyət» məqsədyönlü pedaqoji fəaliyyət kimi, yəni öz praktiki təcrübəsini refleksiya yolu ilə öyrənmək və müqayisə etmək bacarığı, yeni biliklərin mənimsənilməsində və keyfiyyətli pedaqoji təcrübənin əldə edilməsindəki kimi nailiyyətlər başa düşülür. Məqsədlərin, təhsilin məzmununun, forma və metodlarının, texnologiyalarının, təlimin vasitələrinin, idarəetmə sisteminin, bir sözlə pedaqoji prosesin komponentlərin dəyişdirilməsi innovativ pedaqoji fəaliyyətin əsas funksiyalarına aiddir.

İnnovativ pedaqoji fəaliyyət mövcud olan təlim-tərbiyənin və təhsil prosesinin yenilənməsinə və təkmilləşdirilməsinə zəmin yaradır.

Müasir təhsil sistemində ibtidai sinif müəlliminin innovativ pedaqoji fəaliyyəti ən mühüm komponentlərindən biridir. Pedaqogikada «innovativ peaqoji fəaliyyət»in bir az daha dərin və geniş mənası vardır. Bu məqsədyönlü istiqamətləndirilmiş pedaqoji fəaliyyətdir. Öz pedaqoji təcrübəsinə əsalanmalı,

daha yaxşı nəticələr əldə etmək üçün təhsil-tərbiyə prosesini bir daha nəzərdən keçirməli və müqayisə etməli, öz təhsil təcrübəsinin əsasında yeni pedaqoji təcrübəni tətbiq etməli, planlaşdırmalı və təhsilin keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə pedaqoji innovasiyaların həyata keçirilməsi üçün istiqamətləndirilməlidir. Bu istiqamət müəllimin yaradıcı potensialını əks etdirən sosial-pedaqoji bir fenomendir. Pedaqoji termin kimi innovativ pedaqoji fəaliyyət pedaqoji və metodik ədəbiyyatda yeni-yeni işlənilir. Müasir lüğətlərdə innovativ pedaqoji fəaliyyət - yeniliyin pedaqoji fəaliyyətdə tədbiqi, təlim texnologiyalarında və təhsil-tərbiyənin məzmununda dəyişikliklərin edilməsi və onların keyfiyyətinin artırılmasıdır.

İnnovativ pedaqoji fəaliyyətin özünəməxsus spesifik xüsusiyyətləri vardır. İnnovativ pedaqoji fəaliyyət müvafiq subyektlərin müstəqil fəaliyyətini müəyyən edir. İnnovativ pedaqoji fəaliyyətin novatorluğu mövcud təcrübədən kənar, elmi-tədqiqat işlərində daha çox həyata keçirilir və bu proses tənzimlənir, eləcə də mövcud institutlar tərəfindən nəzarət edilir.

İnnovativ pedaqoji fəaliyyət müəllimin innovativ potensialından asılıdır. Müəllimin innovativ potensialı aşağıdakı parametrlərlə ölçülür:

- Müəllimin yeni maraqlar və ideyalarının yaranmasında, eləcə də təcrübə formalarda onların proyektləşdirilməsi və modelləşdirilməsində yaradıcı qabibiliyyətdən istifadə etməsi;
- müəllimin yeniliklərdən faydalanması;
- müəllimin estetik mədəniyyəti və təhsilli olması;
- müəllimin pedaqoji fəaliyyətini təkmilləşdirməsi üçün peşəkarlığını inkişaf etdirməsi;
- innovativ düşüncə tərzinə və yeni pedaqoji təfəkkürə malik olması.

İnnovativ pedaqoji fəaliyyət ənənəvi məktəbəqədər müəssisələrdə və məktəblərdə, eləcə də müasir standartlara cavab verən, yeni avadanlıqlarla təchiz olunmuş yeni tipli təhsil müəssisələrində həyata keçirilə bilər. İnnovativ təhsil müəssisələrində innovativ pedaqoji fəaliyyət empirik yolu (sınaqlar və səhvlər) ilə həyata keçirilir. Yeni tipli təhsil müəssisələrində innovativ pedaqoji fəaliyyət əvvəl yarananı təsbit etmək və stabil saxlamaq, axtarışların istiqamətini mövcud sistemin dəyişdirilməsinə yönəltməkdən ibarətdir.

Bizə məlumdur ki, reproduktiv fəaliyyət ənənəvi fəaliyyət nümunələrinin təkrarına əsaslanır və tanınmış vasitəsi ilə istənilən nəticənin əldə edilməsinə yönəldilir. Produktiv fəaliyyət yeni məqsədlərin hazırlanması və bu məqsədlərin həyata keçirilməsi üçün yeni vasitələrin istifadəsi ilə bağlıdır.

Eksperiment innovativ pedaqoji fəaliyyətin aparıcı forması və əsas hissəsidir. Onun nəticələri təhsil-tərbiyə prosesi haqqında bilikləri daha da zənginləşdirir. Yeni ideyaların və texnologiyaların effektivliyini pedaqoji təcrübə əsasında yoxlamaq olur. İlk olaraq vurğulamaq lazımdır ki, qabaqcıl pedaqoji təcrübə - təhsil-tərbiyəvi, təşkilatı-pedaqoji fəaliyyətdir. Qabaqcıl pedaqoji təcrübə prosesi zamanı stabil müsbət nəticələr aktual pedaqoji problemlərin həllində orijinal formaların, metodların, fəndlərin, təlimin vasitələrinin istifadə-



sini təmin edir. Tərbiyənin, yeni təhsil sistemlərinin və yaxud ənənəvi formaların, metodların, fənd və vasitələrin inteqrasiyası qabaqcıl pedaqoji təcrübədə cəmləşir.

Qabaqcıl pedaqoji təcrübə innovativ pedaqoji təcrübə ilə sıx əlaqədə olsa da, əhəmiyyətli dərəcədə fərqlənir.

Qabaqcıl pedaqoji təcrübənin meyarları aşağıdakılardır:

- Aktuallıq. Müəyyən mərhələdə tərbiyənin və təlimin ən əhəmiyyətli problemlərinə uyğun təcrübənin mövcudluğu;
- Yenilkik. Əvvəllər məlum olunmayan biliklərin, formaların, fəaliyyət üsullarının nəzəriyyə və təcrübədə mövcudluğu. Bu elmi kəşflərə və pedaqoji fəaliyyətinin müəyyən aspektlərinin optimallaşdırılması üçün xas olan xüsusiyyətlərdir;
- Effektivlik. Konkret təcrübənin istifadəsi nəticəsində uşaqların inkişaf səviyyəsinin yüksəldilməsi. Nəticələrin əldə edilməsi üçün müəllimin (tərbiyəçinin) və uşaqların birgə vaxtdan və gücdən ən optimal və səmərəli istifadə etmələri;
- Sabitlik. Uzun müddət digər qabaqcıl müəllimlərin təcrübəsini öz fəaliyyətində istifadə etmək qabiliyyəti;
- Rasionallıq. Yaxşı nəticələri əldə etmək üçün vaxtın düzgün bölünməsi nəticəsində ən məntiqli və münasib ideyaların həyata keçirilməsi;
- Perspektivlik. Qabaqcıl pedaqoqların təcrübəsinə yaradıcı yanaşmaq.

Bu meyarlar əsasında bilik və bacarıqların səviyyəsini qiymətləndirmək olar.

İnnovativ pedaqoji təcrübənin meyarları xüsusiyyətinə görə aşağıdakı kimi müəyyənləşdirilir:

- Tədqiqatçılıq xüsusiyyətlərinə görə. Onun mahiyyəti axtarışlar zamanı kəşf edilmiş orijinal məlumatlar;
- Novatorluğa görə. Onun məqsədi yaradıcı ideyaların istifadəsi əsasında təlim və tərbiyə təcrübəsinin təkmilləşdirilməsindən ibarətdir. Bir qayda olaraq, novator pedaqoji təcrübə yaradıcı axtarış, orijinal, mənalı pedaqoji ideyaların həyata keçirilməsinin nəticəsidir. Pedaqoji ədəbiyyatda pedaqoji təcrübənin zənginləşdirilməsi məqsədi ilə bir neçə ideyalar irəli sürülmüşdür [17].

Pedaqoji təcrübə, pedaqoq-novatorların yaradıcı axtarışının məhsulu kimi, müəyyən şərtlər altında bütün təhsil- tərbiyə sisteminin əsası sayıla bilər. Bu texnologiyanın təhsil təcrübəsində həyata keçirilməsi, pedaqoji elmin və qabaqcıl pedaqoji təcrübənin tədbiqi zamanı baş verir. Məqsədyönümlülük və sistemlilik bu prosesdə qabaqcıl pedaqoji təcrübənin modelləşdirilməsində bir kompleks təşkil edir.

Qeyd etmək lazımdır ki, bu proses 4 mərhələdən ibarətdir:

1. Modelləşdirmə prosesi. Bu mərhələdə innovativ pedaqogika istisna olmaqla, alim-pedaqoqlar, eləcə də təhsil idarəetmə heyəti və işçiləri, təhsil müəssisələrinin və tədris xidmətlərinin rəhbərləri, müvafiq mənəvi və psixoloji, elmi-nəzəri, elmi-metodik, hüquqi amillər nəzərə alınmaqla, qabaqcıl pedaqoji

təcrübəyə yiyələnmək üçün, müəyyən nəzəri modelləri yaratmaq üçün birgə tədbirlər təşkil edir. Bu prosesin əsas komponentləri aşağıdakılardır:

- Yaradılacaq təcrübənin məqsəd və vəzifərini müəyyən etmək;
- Aktual təcrübənin və elmi-nəzəri mənbələrin analizi;
- Obyektin müəyyən edilməsi;
- Təcrübə modelinin stukturunun hazırlanması, onun planının və metodikasının həyata keçirilməsi, analizi və nəzarət edilməsi.

Bu mərhələdə planlaşdırılmış təcrübənin mahiyyətini, məqsədini, problemlərin xüsusiyyətlərini müəyyən etmək vacib şərtlərdən biridir.

2. Təcrübə modelinin formalaşdırılması. Bu mərhələnin əsas xüsusiyyətləri pedaqoji, idarəetmə, elmi-metodiki anlayışların, sxemlərin, tövsiyələrin fəaliyyətinin vasitələr sisteminin alqoritmindən ibarətdir. Bu prosesin əsas komponentləri aşağıdakılardır:

- Təcrübənin aktuallığının əsaslandırılması;
- Təcrübənin nəzəri əsasları;
- Təcrübənin aparıcı ideyası;
- Təcrübənin texnologiyası;
- Proqnozlaşdırılan nəticələr.

Bu prosesin nəticəsi olaraq modelləşdirilmiş təcrübəni vahid şəkil kimi təsəvvür, onun effektivliyini nəzəri cəhətdən müəyyən etmək imkanını yaradır.

3. Təcrübənin yaradılması. Bu mərhələdə nəzəri model real pedaqoji fəaliyyətə çevrilir. O çətin və davamlı olaraq aşağıdakı sxem üzrə reallaşır:

- Yeni iş vasitələrinin mənimsənməsi məqsədilə nəzəri bilikləri öyrənmək;
- Müəyyən edilmiş vasitələrin tətbiqi;
- İştirakçıların fəaliyyətinin tənzimlənməsi;
- Təcrübənin ekspert qiymətləndirilməsi.

Bu mərhələnin yekununda pedaqoji təcrübə bir fenomen kimi görünür. Onun analizi, qiymətləndirilməsi və həyata keçirilməsi vacib şərtlərdən biridir.

4. Yaradılmış təcrübənin pedaqoji fəaliyyətdə həyata keçirilməsi. Onun həyata keçirilməsi üçün yaradılmış təcrübənin təsviri və tövsiyələrin olması vacibdir. İnnovativ pedaqoji fəaliyyət daxili (məqsəd, nailiyyətlərin vasitələri, təsir obyekti, fəaliyyətin subyekti, nəticə) və xarici (motivasiya, məzmun, əməliyyatlar) komponentləri əhatə edir. İnnovativ pedaqoji fəaliyyət qnostik (idrak), lahiyələşdirmə (məsələlər və onların həlli yollarının perspektiv planlaşdırılması), konstruktiv (müəllimin və öyrəncilərin qarşılıqlı əməkdaşlığı), kommunikativ (müəllimin həm öyrəncilər, həm də digər kolleqaları ilə qarşılıqlı əməkdaşlığı), təşkilatçılıq (müəllimin və öyrəncilərin mərhələli fəaliyyəti) funksiyalarını yerinə yetirir. Şəxsiyyətyönümlü, yaradıcı, təcrübə və eksperimental xarakterli təhsil- tərbiyə prosesində yanaşma innovativ pedaqoji fəaliyyətin əsas xüsusiyyətlərindən biridir [13].

İnnovativ pedaqoji fəaliyyət təhsil müəssisələrinin yenilənməsi, eləcə də təhsil sisteminin inkişafı üçün bir faktor kimi göstərilir. Təhsil müəssisələrinin



struktur və məzmun dəyişiklikləri innovativ pedaqoji fəaliyyətin nəticələri kimi qiymətləndirilir [10].

Müasir şərtlər altında cəmiyyətin, mədəniyyətin və bütövlükdə təhsilin inkişafında pedaqoji fəaliyyətə yeni yanaşmanın bir sıra amilləri mövcuddur. Sosial-iqtisadi dəyişikliklərin cəmiyyətdə baş verməsi təhsil sistemində, metodikada, eləcə də müxtəlif tipli təhsil müəssisələrində təhsil-tərbiyə işinin texnologiyasının təşkili prosesində köklü dəyişikliklərə təkan vermişdir. İbtidai sinif müəlliminin pedaqoji fəaliyyətinə inovativ yanaşma təhsil siyasətinin yeniləşməsində bir vasitə kimi çıxış edir. Təhsil məzmununun humanistləşdirilməsinin möhkəmləndirilməsində, akademik fənlər strukturunun həcminin davamlı dəyişikliyində; fənlərin tətbiqində yeni təlimin formaları və texnologiyaların təşkilində müəlliminin pedaqoji fəaliyyətinə inovativ yanaşma təhsil siyasətinin bir hissəsini təşkil edir. Deməli, ibtidai sinif müəllimlərinin peşəkarlığının artırılması məsələləri aktuallaşır. İbtidai sinif müəllimlərinin tədris mühitində pedaqoji biliyi və nüfuzunun rolu bu fikirləri əhəmiyyətli dərəcədə artırır. Pedaqoji innovasiyaların inkişafı faktı ibtidai sinif müəllimlərin innovasiyaların mənimsənilməsində və tədbiqində münasibətlərin xarakterini dəyişdiyini müşahidə edilir. Ənənəvi təhsildə müəllim təhsil-tərbiyə prosesinin məzmunun müəyyənləşdirilməsində yeni proqramların hazırlanmasında, pedaqoji fəaliyyətində yeni üsullardan, texnologiyalardan istifadə etmək sərbəst deyildi. Hal-hazırda təhsil sistemində və müəllim mühitində innovativ pedaqoji fəaliyyət araşdırıcı və seçici xarakter daşıyır. Məhz buna görə pedaqoji kollektiv rəhbərlərinin fəaliyyətində, təhsil müəssisələrinin metodiki xidmətində müəllimlər tərəfindən tətbiq edilən pedaqoji innovasiyaların analizi və qiymətləndirilməsi həyata keçirilir.

Pedaqoji innovasiyaların uğurlu inkişafı və tədbiqi üçün lazımi şəraitin yaradılması zəruridir. Təhsil müəssisələrinin bazar münasibətlərinə daxil olması onların rəqabət qabiliyyətinin real vəziyyəti təşkil edir. Təhsil sektorunda xidmət edən hər bir kollektiv innovativ pedaqoji fəaliyyətdən yararlanır. Çünki hər bir kollektiv qarşı-qarşıya təhsil sahəsində xidmətlər göstərir. Rəqabət amili pedaqoji fəaliyyət üçün əsas səbəblərdin biridir. Bu gün təhsil müəssisələrin kollektivləri bazar rəqabətni qorumaq üçün müstəqil şəkildə qayğı göstərməlidirlər. Təhsil bazarında situasiyaya və onun proqnozlaşdırılmasına nəzarət, əsas və potensial rəqibləri müəyyən etmək, yeni elmi və texnoloji nailiyyətlərin yaranmasını müşahidə etmək zəruridir.

Müasir müəllimin innovativ pedaqoji fəaliyytini nə müəyyən edir?

Qoyulan sual çox asan, elmi cəhətdən çox çətin bir sualdır. Asan tərəfi odur ki, innovasiyanın mahiyyəti hər kəsə aydındır, onun məzmunu, texnologiyası, müasir dövrümüz üçün yenidir. Çətin tərəfi odur ki, öz innovativ fəaliyyətini təsvir etmək, sübüt edib təqdim etmək hər bir müəllimin işi deyil. Çünki innovasiya bir yenilik kimi müəllimin pedaqoji fəaliyyətində bütöv bir sistemdir. Bu sistemdə innovasiyanın mahiyyəti, məzmunu, hədəfləri, üsulları və təqdimatı göstərilmişdir.

Təlim-tərbiyə işlərində yüksək keyfiyyətin əldə olunması üçün onların məzmununda yeniliklərin tədbiq edilməsi müasir müəllimin innovativ pedaqoji fəaliyyətini təşkil edir.

Müasır müəlliminin innovativ fəaliyyətini şəxsi yanaşma, yaradıcı prosesin və ya yaradıcı fəaliyyətin nəticəsi kimi şərh etmək olar. İnnovativ pedaqoji fəaliyyət müvafiq mövzularda müvafiq şəxslərin fəaliyyət azadlığınının müəyyən mövcudluğunu nəzərdə tutur. İnnovativ fəaliyyət şəxsiyyəti, özünü ifadə etmək üçün dəyəri bacarıqlarının yaradıcılıqla ifadə edilməsidir. İnnovativ prosesdən irəli gələn çətinliklərin həlli perspektiv kimi qiymətləndirilməlidir [16].

İnnovativ pedaqoji fəaliyyətinin həyata keçirilməsi onun məntiqi nəticəsidir. Ən yaxşı təcrübələrin yayılması, təhsil bazarında məktəbin liderlik mövqeyi və müsbət imicinin yaranması innovativ infrastukturunun formalaşması və davamlı inkişafı üçün zəmindir. İnnovativ pedaqoji fəaliyyət yaradıcı fəaliyyətin xüsusi fəaliyyət növü kimi təhsilin yenilənməsinə istiqamətləndirilmişdir. Cəmiyyətin ehtiyac və maraqların ödənilməsi insanların fəaliyyətinin nəticəsidir [17].

İnnovativ fəaliyyət mürəkkəb və çoxşaxəli bir fenomen olaraq, fərdlər arasında qarşılıqlı prosesin məzmununu əhatə edir. O, obyektin keyfiyyətlə yenilənməsinə, sistemli fəaliyyətin yaranmasına, yeniliklərin mənimsənilməsinə və tədbiqinə istiqamətləndirilmişdir. Bütün bu təzahürlər pedaqoji sahədə innovativ fəaliyyəti xarakterizə edir [11].

İnnovativ pedaqoji fəaliyyət anlayışı pedaqoji təcrübə anlayışı əsasında yaranmışdır. Pedaqoji fəaliyyət daima təlim zamanı əldə olunan bilik və şəxsiyyətin tərbiyə olunan keyfiyyətlərinə istiqamətləndirilmişdir. Təhsil islahatlarında hansı dəyərlər edirsə (üstünlük təşkil edir), pedaqoji fəaliyyət formalaşdırıcı (ənənəvi) və yaxud inkişafetdirici (humanistik) xarakterə malik ola bilər [22].

Təhsil haqqında Azərbaycan Respublikasının Qanununda məktəblərdə aşağıdakı dəyərlərin formalaşdırılması vacib hesab olunur. Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır:

1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

2. milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis kadrlar hazırlamaq;

3. sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq;

Pedaqoji sistemlərin yenilənməsi müxtəlif səviyyələrdə həyata keçirilir. Bəzi müəssisələr yenilik konsepsiyalarının inkişafına başlayır, digərləri isə



yeni təhsil müəssisəsi kimi formalaşır [1].

Bizim tədqiqat işimizdə innovativ pedaqoji fəaliyyət təhlil edilərkən bu anlayışla bağlı üç yanaşma verilmişdir:

- reproduksiya və yaradıcılıq bir-birinə ziddir. Yaradıcılıq insan fəaliyyətinin bütün növlərinə xas olan keyfiyyətdir və onun xüsusiyyətlərinə əks reproduksiya ilə didaktik olaraq əlaqəlidir;
- reproduksiya və yaradıcılıq yeni, qeyri-şablon məhsula yönəldilən hər hansı dəyişdirilmiş fəaliyyətin iki əlaqəli tərəfləridir;
- reproduktiv fəaliyyət yaradıcılıq fəaliyyətinin şərtidir.

O.L.Berak öz elmi-tədqiqat işində yazır ki, «reproduksiya və yaradıcılıq iki vacib amildir, baxmayaraq ki, insanın məqsədyönlü yaradıcılığı fərqləndirən element kimi görünsə də». Hər hansı yaradıcılıq fəaliyyəti bilik (elm) reproduksiyasının elementləridir, əvvəlki təcrübəyə kömək edir. Əgər biz müəllimin pedaqoji intizamın öyrənilməsi prosesində inovasiya fəaliyyətinin hazırlığının formalaşmasını özümüzə məsələ kimi qoyuruqsa, nəzərdə saxlamalıyıq ki, hər reproduktiv fəaliyyət yaradıcılıq elementidir [9].

V.İ.Zaqvyazinski yaradıcılığın üç səviyyəsini göstərir:

- kəşf, yeni pedaqoji ideyaların irəli sürülməsi və tətbiqi;
- pedaqoji ixtisarlar;
- təkmilləşmə, məlum metodların müasirləşdirilməsi.

A.K.Markov pedaqoji yaradıcılığın aşağıdakı səviyyələrini göstərir:

1. Yaradıcılıq geniş mənada yeni kəşf, yəni məsələ həllində müəllimin variativ, qeyri-standart vasitələr aşkarlaması hesab olunur. Burada müəllim alqoritm, stereotip üsullardan yeni subyektiv üsula keçidi həyata keçirir. Bu səviyyənin mahiyyəti ondan ibarətdir ki, mümkün üsullardan ən optimalı seçilir, dərsdə improvizasiya gedişində yeni dəyişmiş şəraitdə köhnə üsullardan istifadə edilir [9].

Prof. Ə.Paşayev və prof. F.Rüstəmov təlim prosesinin optimallaşdırılmasını pedaqoji sistemə aid olan ümumi innovasiya hesab edirlər [6, 110-111].

Onların fikrincə, təlim, təhsil-tərbiyə prosesinin optimallaşdırılması bütünlükdə pedaqoji sistemə aid edilən ümumi innovasiyadır. Optimallaşdırma (ortimum - ən yaxşı) mümkün olan variantlardan ən yaxşısını seçib götürmək prosesidir. Pedaqoji sistem kimi mürəkkəb, dinamik, çoxplanlı sistemdə təlim, təhsil-tərbiyə prosesinin qurulmasının, gedişinin və təşkilinin, orada məqsədlərə nail olmağın minlərlə mümkün variantları mövcuddur. Konkret şəraitdə onlardan, ancaq biri ən yaxşı ola bilər. Onu axtarıb tapmaq optimallaşdırmanın başlıca vəzifəsidir. Bu vəzifə mümkün variantları müqayisə etmək və alternativləri qiymətləndirmək yolu ilə həll edilir.

Optimallaşdırma pedaqoji sistemin qarşıya qoyulmuş məqsədinə uyğun olmalıdır. Çünki həmin sistem o məqsədə nail olmaq üçün yaradılıb. Bir şəraitdə əldə edilən optimallıq digər şərait üçün yararlı olmaya da bilər. Ona görə ki, optimallaşdırma anlayışı həmişə konkretdir. Optimallaşdırmanın nəzəri və praktiki istiqamətləri vardır.

Nəzəri aspektdə — "optimallaşdırma" anlayışının sinonim variantları hesaba (uçota) alma, müqayisə, tutuşdurma hesab olunur.

Praktiki aspektdə "optimallaşdırma" pedaqoji sistemin innovasiyası, yenidən təşkili və qurulması, qarşıya qoyulmuş vəzifələri həll etmək üçün onun ən yaxşı vəziyyətə gətirilməsi kimi başa düşülür. Optimallaşdırma vəzifələrinin həlli meyarların seçilməsindən başlayır. Optimallaşdırmanın meyarı əlamətdir, göstəricidir. Onun əsasında inkişaf prosesinin mümkün variantları qiymətləndirilir və onlardan ən yaxşısı seçilir. Məntiq tələb edir ki, meyarda ancaq və ancaq bir göstərici (parametr) olsun. Amma pedaqogikada o, kompleks halda olur. Çünki pedaqoji sistemdə baş verən proseslərin səbəb-nəticə əlaqələrini bir-birindən ayırmaq mümkün deyil. Təlim-tərbiyə prosesi o zaman optimal hesab olunur ki, orada şagirdlər və müəllimlər yüklənmir və maksimum nəticə əldə edilir. Təcrübə göstərir ki, müəllim və şagirdlərin həddən artıq yüklənməsi onların iş qabiliyyətini azaldır və sağlamlığına pis təsir göstərir. Hələ indi də qüvvədə olan normalara görə I sinif şagirdi üçün ev tapşırığının yerinə yetirilməsinə gündə I saat, II sinif şagirdinə 1,5 saat, III-IV sinif şagirdinə 2 saat, V-VI sinif şagirdinə 2,5 saat, VII sinif şagirdinə 3 saat, VIII-XI sinif şagirdinə 4 saat vaxt nəzərdə tutulur. Hazırda məktəblilərin əksəriyyətinin səhhətinin normal olmadığını nəzərə alaraq bu normaları azaltmaq (xüsusilə I-IV siniflərdə) məqsədəuyğundur.

Pedaqoji ədəbiyyatda təlim-tərbiyə prosesinin optimallaşdırılmasının əsas meyarı kimi bir-biri ilə üzvi əlaqəsi olan iki göstərici əsas götürülür:

1. Müəyyən şəraitdə şagirdlərin təhsil-tərbiyəsi və inkişafında maksimum mümkün olan nəticələr əldə etmək.

2. Həmin yaşda olan şagirdlərin sinif və ev işinə ayrılan vaxt normalarını gözləmək.

Sistemli yanaşma optimallaşdırmanın metodoloji əsasını təşkil edir. O, pedaqoji prosesin bütün komponentlərini, qarşılıqlı əlaqələrin qanunauyğunluqlarını vəhdətdə götürməyi, mürəkkəb dinamik sistemlərin idarə olunmasının ümumi nəzəriyyəsinə istinad etməyi tələb edir. Optimallaşdırma pedaqoji prosesi mövcud vəziyyətə, şəraitə uyğunlaşdırmağı nəzərdə tutur. Bununla belə, o, özü yeni şərait yaradır və pedaqoji prosesin ona tabe olmasını tələb edir. Burada heç bir ziddiyyət yoxdur. Belə ki, hər iki proses arasında qarşılıqlı əlaqə vardır.

Məktəbin, müəllimin və şagirdlərin fəaliyyətinin aşağıdakı səviyyələri məlumdur:

1) qeyri-kafi səviyyə; 3) müvafiq səviyyə;
2) böhran səviyyə; 4) optimal səviyyə.

Təlim-tərbiyə prosesinin optimallaşdırılması o zaman mümkündür ki, pedaqoq əsas pedaqoji bilik və bacarıqlara, pedaqogikanın aparıcı qanunauyğunluqlarına və prinsiplərinə, kollektiv, qrup və fərdi fəaliyyətin təşkili texnologiyasına yiyələnmiş olsun, təhsilin, tərbiyənin və inkişafın vəzifələrini başa düşsün. Ancaq bu da həqiqətdir ki, bütövlükdə sistemi və onun hər bir ele-



mentini bilməklə prosesin optimal variantını seçmək olar. Əgər belə olmasa onda optimallıq ideyası həddən artıq mürəkkəb bir şey hesab olunar, öz əhəmiyyətini itirər. Optimallaşdırma həm də qabaqcıl müəllimlərin təcrübəsinə istinad edir. Lakin onunla məhdudlaşmır. Tədqiqatlar göstərir ki, təlim-tərbiyə prosesini müvəffəqiyyətlə optimallaşdırmaq üçün müəllim aşağıdakı şəxsi keyfiyyətlərə malik olmalıdır:

1) yaradıcı təfəkkür üslubuna;
2) təfəkkür çevikliyinə;
3) təfəkkür konkretliyinə;
4) təfəkkür sistemliliyinə;
5) qərarlar qəbul edən və fəaliyyət göstərən zaman həddi gözləmək qabiliyyətinə;
6) daha tez ünsiyyətə girmək və pedaqoji taktı gözləmək bacarığına.

Ümumiyyətlə, təlim-tərbiyə prosesinin optimallaşdırılması metodikasını bilmək hər bir müəllim üçün zəruri və vacibdir.

2. Yaradıcılıq daha məhdud mənada – özü və digərləri üçün yeni olan kəşf, yəni novatorluq (yenilik) [25].

İnnovativ pedaqoji fəaliyyətin yaradıcılıq istiqamətlərinin mahiyyəti N.M.Qnatko, A.Q.Kovalev, B.D.Parıgina, V.A.Proseskin kimi tanınmış filosof və psixoloqlar tərəfindən geniş araşdırılmışdır. Onların nəzəri fikirləri V.A.Slastenin, L.S.Podımova tərəfindən təqdir olunur [70, 131].

V.A.Proseskinə görə fərdin fəaliyyətinin inkişaf yolu aşağıdakı kimi verilmişdir:




Fərdin fəaliyyət inkişafı. Təqlid və yaradıcılıq əlaqələri problemi gənc müəllimlərin fəaliyyətində özünü daha çox göstərir. Onların yaradıcılıq fəaliyyəti əsasən təqlid xarakteri daşıyır ki, bu da yaradıcılıq fərdiyyətinin təşəkkülü yolunda ilkin (təbii) mərhələdir.

V.A.Slastenin qeyd edir ki, müəllimlərin hamısı üçün kreativliyin bütün mərhələləri xas deyil, kimsə hazır metodik tövsiyələri təqlid etməklə yalnız birinci mərhələyə nail olur, bəzi pedaqoqlar hər hansı bir konsepsiyanı, sistemləri dəyişmir, bəzi metodik üsullar daxil edirlər, üçüncülər ideyanı əsas götürərək yeni məzmun işləyib hazırlayırlar, dördüncülər isə tədris və tərbiyənin xüsusi orijinal konsepsiyasını və metodikasını yaradırlar» [27].

İntellektual fəaliyyətin ən yüksək səviyyəsi yaradıcılıqdır. Yaradıcı bir müəllimin fəaliyyəti zamanı qarşıya qoyulan məqsədə uyğun olaraq nailiyyətlərin nəticəsi daha geniş olur. Bu vəziyyətdə fəaliyyətin yeni xarakteri və məqsədi meydana gəlir ki, bu da öz növbəsində qoyulan məsələnin cavab formasını özü-özlüyündə dəyişir. Müəllimin əldə etdiyi empirik qanunauyğun-

luqlar evristik deyil, müstəqil bir problem kimi görünür, problemin həllində daxili motivasiyanın köməyilə yaradıcı fəaliyyət üstünlük təşkil edir. İntellektual fəaliyyətin səmərəverici səviyyəsində problemlər şəxsin özü tərəfindən analiz edilir. Aşkar olunmuş qanunauyğunluqlar sübuta yetirilərkən müəllimin şəxsi fikri əsas götürülür. Yaradıcı səviyyəyə uyğun olaraq qarşıya qoyulan məsələlər öz həllini tapır. Eyni zamanda artıq ortaya çıxan problemlər yaradıcı müəllimlərin yeni fərziyyələr və orijinal fikirləri əsasında öz həllini tapır. Demək olar ki, müasir müəllimin intellektual fəaliyyətinin yaradıcılıq səviyyəsi nəzəri kəşflərə hazırdır. Bu səviyyəyə xas olan bir müasir müəllim, özünün tapdığı faktlar əsasında, onları izah edən bir nəzəriyyə qurur, yeni bir problem yaradır, bu problemin həlli yollarını araşdırır. Bu sadalananları nəzərə alsaq görərik ki, innovasiya tədrisinin təşkili strategiyasını səciyyələndirir və innovasiya fəaliyyətinin təkmilləşmə perspektivini təşkil edir.

Beləliklə, kreativlik artıq yığılanların mənimsənilməsi prosesində inkişaf edir, sonra isə müəllimin mövcud təcrübəsinin dəyişdirilməsi, islahatları həyata keçirilir. Yeni tədris və tərbiyə texnologiyası yaradan pedaqoqlar çox deyil. Mövcud elementlərdən mövcud sistemi istifadə etməklə təkmilləşdirmək də yaradıcılıqdır.

Buradan belə nəticə çıxır: pedaqoji yaradıcılıq pedaqoji innovasiya fəaliyyətinə hazırlığın vacib komponentidir.

İnnovasiya proseslərinin fəaliyyət strukturunun təhlili, o cümlədən mahiyyəti əsas mövcud texnoloji və əməliyyat komponentini göstərməyə imkan verir. Bu struktur aşağıdakı kimi təqdim edilir:

- mövcud təhsil proseslərinin əsaslandırılaraq yenidən işlənilməsi, onların inteqrasiyası, problemli pedaqoji situasiyaların yekunu və təsnifatı, fəal informasiya axtarışı, yeniliklərlə tanışlıq;
- yeniliklərin yaradılmasında və istifadə olunmasında xüsusi imkanların əsaslandırılması, təhlili və yenidən istifadə barəsində qərarın qəbul olunması;
- yeniliklərin tətbiqinə ümumi konsepsual yanaşmaların və məqsədlərin təşəkkülü;
- üsulların (yolların), məqsədə nail olmanın, dəyişikliklərin, çətinliklərin innovasiya fəaliyyətinin nəticələrinin, həmkarlarla, inzibatçılarla müzakirəsi, yeniliklərin proqnozlaşdırılması;
- ideyaların yaranması, konseptual əsasların və eksperiment mərhələlərinin işlənib hazırlanması;
- innovasiya işlərinin (fəaliyyət) reallaşdırılması: yeniliklərin pedaqoji prosesə tətbiq edilməsi, onun inkişafına və tətbiqinə nəzarət etmək;
- yeniliklərin və bütün innovasiya işlərinin tətbiqinə nəzarətin və korreksiyasının həyata keçirilməsi, tətbiqin nəticələrinin qiymətləndirilməsi, pedaqoqun özünüreallaşdırmaya refleksiyası.

Müasir müəllimin innovativ pedaqoji fəaliyyətinin öz spesifik xüsusiyyətləri O.Q.Homeriki, A.V.Lorensov, M.M.Potaşnik, A.Mehrabov, Ə.Paşayev,



F.Rüstəmov, L.Qasımova, Ə.Abbasov tərəfindən araşdırılmışdır. Tədqiqatçıların fikrincə, məktəbin yenilənməsində müəllimin innovativ pedaqoji fəaliyyəti mühüm rol oynayır. Müəllimin innovativ pedaqoji fəaliyyəti eksperiment məntiqinə əsaslanır: problem seçilməsi, aktuallığın əsaslandırılması, məqsədin qoyulması, məsələyə yenidən baxılması, fərziyyənin müəyyənləşdirilməsi, mərhələlərin, müddətin, meyarların konkretləşdirilməsi, proses və nəticələrin monitorinqi və təhlili. Yeniliklərin mənimsənilməsində müəllim əməyi çətin və çoxaspektlidir.

Qeyd etmək lazımdır ki, səmərəli innovativ pedaqoji fəaliyyət müəllim tərəfindən intellektual aktivliyin kreativ səviyyəsilə həyata keçirilə bilər. Tədqiqatlar göstərir ki, innovativ fəaliyyətə hazır olan müəllimlər elə də çox deyil, buna görə də təhsil müəssisələrində gələcək müəllimlərə tədqiqatçılıq bacarıqları aşılamaq vacib bir məsələdir. Müəllimin təşkilatçılıq, öyrətmə, perspektiv, elmi-idrakı qabiliyyəti ilə yanaşı, tadqiqatçılıq qabiliyyəti də onun zəruri kompetensiyalardan hesab olunur.

İnnovativ pedaqoji fəaliyyət strukturunun vacib və lazımlı komponenti refleksiyadır. Təlim prosesinin refleksiyası biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biridir. Refleksiya - subyekt tərəfindən daxili ruhi vəziyyətin dərkidir. Pedaqoji lüğətdə müəllimin refleksiyası belə səciyyələndirir: «Müəllimin özünə və hərəkətlərinə obyektiv qiymət vermək və uşaqların onu necə qəbul etmələrini başa düşmək bacarığıdır» [24].

Reflektiv proseslərin komponentləri aşağıdakılardır:

- özünü dərketmə;
- digərini başa düşmə (anlama);
- özünü və başqasını qiymətləndirmə;
- özünü və başqasını interpretasiya etmə.

Refleksiya yaradıcılıq fəaliyyəti ilə bağlıdır.

M.V.Klarinin refleksiya ilə bağlı yanaşması maraq doğurur, o refleksiyanı təfəkkürdən ayırır [15, 104]. Müəllif yaradıcı təfəkkürün xüsusiyyətlərini açıqlayır, refleksiyanın nəticələrinə, problemlərin həllinə diqqət yetirir. Müşahidələrimizə əsasən deyə bilərik ki, müəllimlərin az hissəsi öz təcrübəsinə tənqidi yanaşmağa qadirdir.

Refleksiya - fəaliyyət şərtlərinin dəyişməsi təhlilinin aparılmasını təşkil edən bir fəaliyyət kimidir.Müəllim-innovator bu zaman yeniliklərin tətbiqi nəticələsində, özünün və başqasının qiymətini bilmək bacarığına malik olmalıdır, gələcək nəticələri nəzərdə tutmalıdır. Refleksiya pedaqoqun öz fəaliyyətilə, onun şəxsi keyfiyyələrilə bağlıdır və özünüinkişafa yönəldilmişdir. Müəllimin peşə-tədris fəaliyyətində elə şərait yaratmaq lazımdır ki, pozitiv özünüdərki təşkil etsin, özünütəsdiq prosesini stimullaşdırsın.

İnnovativ pedaqoji fəaliyyət motivasiya, yardıcılıq, əməliyyat və refleks komponentlərinin araşdırılması göstərir ki, burda daha çox tədqiqat V.A.Slasteninin və L.S.Podımovanın təklif etdiyi innovasiya fəliyyətinin strukturu [27]

əsas götürülür. N.A.Duka [75, 47] innovativ pedaqoji fəaliyyətin strukturunu aşağıdakı kimi vermişdir:




Müəllif pedaqoji innovasiyaların əsas biliyi, əməliyyatın texnoloji ilə əvəz edilən, pedaqoji oriyentasiya bacarığı daxil olan yerə koqnitiv komponenet daxil edir.

İ.Y.Piskarova öz elmi-tədqiqat işində innovativ pedaqoji fəaliyyətin strukturunda aşağıdakı komponentlərə ayırmışdır:

1. Motivasiya dəqiq komponent kimi:

a) pedaqoji fəaliyyətdə innovasiyaları duymaq, onların həyata keçirilməsinə zəmin yaratmaq və ən əsası isə innovativ pedaqoji fəaliiyəti inkişaf etdirmək.

2. Kreativ komponent:

a) yenilikçi fəaliyyətin həyata keçirilməsinin müxtəlif variantları ilə tanışlıq, onların şəxsi və fərdi-psixoloji quruluşları ilə əlaqələri;

b) seçilmiş innovasiyaların inkişafı və onların özündə cəmləşdirilməsi;

c) innovasiyaların müəllim və tələbə şəxsiyyətinin inkişafına uyğun olub-olmadığının müəyyən edilməsi.

3. Prosesual komponent:

a) mövcud təhlil layihələrinin yenidən hazırlanması;

b) yeniliyin tətbiqi üzrə qərarların qəbul edilməsi;

c) məqsədlərin və ümumi konseptual yanaşmaların formalaşdırılması və yeniliklərin tətbiqi;

ç) məqsədə nail olmaq üçün vasitələrin proqnozlaşdırılması;

d) innovativ fəaliyyətin nəticələri;

e) innovativ tədbirlərin həyata keçirilməsi;

ə) innovasiyaların dəqiqləşdirilməsi, korreksiyası və həyata keçirilməsi.

Deməli, müəllimin innovativ pedaqoji fəaliyyətinin məzmunu mürəkkəbdir, öz spesifik xüsusiyyətləri var. Onunla bağlı yanaşmalar mövcuddur. Tədqiqatlarında innovativ fəaliyyətin strukturuna aşağıdakı komponentlər daxil



edilir (motivasiya, kreativ, koqnitiv, prosessual). Bu komponentlər gələcək müəllimin innovasiya fəaliyyətinə hazırlığında mühüm əhəmiyyət daşıyır. İnnovativ fəaliyyətin strukturunda motivasiya-qiymət, nəzəri-metodoloji və peşə-təcrübə komponentləri də əhəmiyyətlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Təhsil Konsepsiyası - Milli Kurikulum.
2. Alizadə A. Ərəbcə-Azərbaycanca lüğət. Bakı: Şərq-Qərb, 2013, 700 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Şərq-Qərb, 2006, 744 s.
4. İnteraktiv təlim və innovasiya texnologiyaları terminlərinin izahlı lüğəti. ADİU, 130 s.
5. İngilis dilinin Oksford lüğət. 2005, I c., 700 s.
6. Paşayev Ə., Rüstəmov F. Pedaqogika Bakı: Elm və təhsil, 2010, 462 s.
7. Азгальдов Г.Г., Костин А.В. К вопросу о термине «инновация»// Оценка эффективности инноваций: сборник статей под ред. В.Н.Лившица. В.4. М.: ЦЭМИ РАН, 2010, 161 с.
8. Бадьин Г. М. Основные термины и определения. 2006, 335 с.
9. Берак О.Л. Соотношение репродуктивного и творческого компонентов учебно-познавательной деятельности при формировании специалистов в высшей школе. Дисс. канд.пед.наук. М., 1985, 61 с.
10. Большая Экономическая Энциклопедия. 2008, 816 с.
11. Большой экономический словарь. Институт новой экономики, 2008, 472 с.
12. Головин С.Ю. Словарь практического психолога. М.: АСТ., Харвест, 1998, 94 с.
13. Дука Н.А. Педагогическое проектирование, как условие подготовки будущего учителя к инновационной деятельности. Дисс.канд.пед.наук - Омск, 1999, 215 с.
14. Зимняя И.А. Педагогическая технология. Ростов-на-Дону, 1993, 175 с.
15. Кларин М.В. Инновационное образование: Дидактический анализ. Журнал «Педагогика» №6, 2014, 280 с., 32-39с.
16. Кононенко Б.И. Большой толковый словарь. 2003, 510 с.
17. Комлев Н.Г. Словарь иностранных слов. 2000, 1308 с.
18. Короткое В.А. Профессионально-личностная ориентация педагога предметника инновационных образовательных институтов. М., 1995, 257 с.
19. Лопатников Л.И. Словарь современной экономической науки. М.: Дело, 2003, 519 с.
20. Муканова С.Д. Управление инновационными процессами в условиях стандартизации среднего общего образования// Автореф. дисс. ... д.пед.н. Караганда, 2008, 30 с.
21. Некрасов С.И., Некрасова Н.А. Философия науки и техники: тематический словарь. Орёл: ОГУ, 2010, 289 с.
22. Новиков А.М. Педагогика: словарь системы основных понятий. М.: Издательский центр ИЭТ, 2013, 268 с.
23. Новиков А.М. Методология учебной деятельности. М.: Эгвест, 2005, 176 с.
24. Ожегов С.И. Словарь русского языка. М., 2004, 874 с.
25. Российская Педагогическая Энциклопедия. М., 1993, I т., 607 с.
26. Сластенин В.А., Подымова Л.С. Педагогика: инновационная деятельность. М., 1997, 224 с.
27. Философский энциклопедический словарь. М.: Советская энциклопедия, 1983, 840 с.

## СОДЕРЖАНИЕ И ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ИННОВАЦИОННОЙ ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ СОВРЕМЕННОГО УЧИТЕЛЯ

**И.О.МАМЕДОВА**

### РЕЗЮМЕ

В статье представлена обширная информация о современном учителе, объяснены требования, содержание и характерные особенности его инновационной педагогической деятельности, а также выявлены основные теоретические результаты взаимоотношения и закономерности в этой области.

**Ключевые слова:** учитель, инновация, инновационная педагогическая деятельность, педагогические технологии, функциональные компоненты.

## THE CONTENT AND CHARACTERISTICS OF A MODERN TEACHER'S INNOVATIVE PEDAGOGICAL ACTIVITY

**I.O.MAMMADOVA**

### SUMMARY

The article gives extensive information about a modern teacher, as well as the content and features of his innovative pedagogical activity. The article outlines the theoretical foundations of mutual relations and legality. In the context of the current context, the content and characteristics of the innovative teacher's pedagogical activity are explained.

**Keywords:** teacher, innovation, innovative pedagogical activity, pedagogical technologies, functional components.